# Natəvan klubunda yaşanan Poeziya günü



Sentyabrın ilk günlərində doğma Şuşamızda keçirilən Vaqif Poeziya günlərinin davamı kimiydi üç gün öncə AYB-nin Natəvan klubunda yaşanan anlar. Söz adamları poeziya məclisində bir araya gəlmişdilər. Tarixi Zəfər günümüzün xoş ovqatı səsləndirilən fikirlərin, söylənilən şeirlərin ruhuncaydı. İlk dəfəydi ki, çıxışçılar "gün o gün olsun" - nidasıyla sonlanmırdı. "Biz döndük, qayıtdıq" bəxtiyarlığı sarmışdı Natəvan klubunu.

Uzun aylar boyunca yaşamımızı təqib edən pandemiya səbəbiylə səssizliyə qərq olmuş bu sənət hücrəsi ilk dəfəydi ki, qapılarını qoynunda yetişən söz adamlarınını üzünə açırdı. "Vətən gözdür, biz kiprik, gözümüzün keşiyini çəkirik" (Məmməd Aslan) düşüncəsi şeirdən-şeirə yaşanırdı. Ali Baş Komandanımızın, o tarixi günlərimizdə bir yumruq kimi birləşən xalqımızın, müzəffər ordumuzun ünvanına xoş fikirlər səslənir, "şükür olsun" deyilirdi...

Tədbiri açan Yazıçılar Birliyinin katibi, yazıçı Elçin Hüseynbəylinin əhatəli çıxışı bu deyilənləri bütün dolğunluğu ilə ifadə etməkdəydi. Əvvəlcə tarixi Zəfər günümüzün təməlinə can qoyan şanlı şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edildi. Sonra Elçin Hüseynbəyli diqqətə çatdırdı ki, hər birimizə doğma olan Natəvan klubunda pandemiya səbəbiylə yaranan sükutu Poeziya məclisi pozur. "Təbiidir. Çünki tarixi torpaqlarımız uğrunda açdığımız savaş günlərində müqəddəs sözümüz, poeziyamız da müsəlləh əsgərə dönmüşdü. Döyüşürdü. Bizi qələbəyə səfərbər edir, öz vacib, tarixi missiyasını yerinə yetirirdi".

AYB katibi diqqətə çatdırdı ki, tarixi Vaqif Poeziya günlərində Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar yazıçıların növbəti qurultayının Şuşada keçirilməsini təklif etdi. "Anar müəllimin təklifi cənab Prezidentimiz tərəfindən müsbət qarşılandı. Qurultayımızın noyabr ayında keçirilməsi nəzərdə tutulurdu. Lakin real səbəblər - pandemiyanın davam etməsi, hava şəraiti vaxt məsələsinə yenidən baxılmasına səbəb oldu. Əvəzində ötən günlər ərzində Yazıçılar Birliyi bir çox mühüm layihələri gerçəkləşdirdi. Anar müəllimin ideya müəllifliyi ilə "Qarabağ dastanı" nəfis şəkildə nəşr edilərək cəmiyyətə təqdim olundu. Qurultay öncəsi keçirilən ənənəvi hazırlıq işlərinə start verildi. AYB-yə yeni təyinatlar oldu. Bu təyinatlardan biri də hər birimizin yaxşı tanıdığı qələm dostumuz İbrahim İlyaslıyla bağlıdı. Bundan sonra o, AYB Poeziya seksiyasının sədr müavini vəzifəsini icra edəcək. Təbrik edir və uğurlar arzulayıram..."

Göstərilən etimada görə AYB rəhbərliyinə, şəxsən Anar müəllimə minnətdarlığını bildirən İbrahim İlyaslı eyni zamanda Şuşada keçirilən Vaqif Poeziya günlərinin həyəcanlı, xoşbəxt anlarını yenidən yaşadığını dilə gətirdi: "O unudulmaz günlərin ovqatı "Ədəbiyyat qəzeti"nin xüsusi buraxılışında tarixləşdi. Yeni, qürur dolu poeziya nümunələri, təəssüratlar dərc olundu. Şerimizin, sözümüzün həssaslığı, qədirbilənliyi göz önündə oldu... Bu ənənə yaşadılmalıdır".

Şair Ramiz Qusarçaylı çıxışında diqqətə çatdırdı ki, AYB-nin poeziya seksiyasına rəhbərlik edən Çingiz Əlioğlu çox vicdanlı, böyük ürəyə və ədəbi imkanlara malik bir şəxsiyyətdir. "İnanıram ki, qələm dostumuz İbrahim İlyaslı öz fəaliyyətində Çingiz müəllimin yaxın köməkçisi olacaq..."

Professor, şair-publisist Elçin İsgəndərzadə "bu günümüzə, Allahımıza, Ali Baş Komandanımıza, Ordumuza şükür" - deyə unudulmaz Xudu Məmmədovun, Şahmar Əkbərzadənin, Akif Səmədin ruhuna ithaf etdiyi "Şükranlıq türküsü" şeirini oxudu.

AYB-nin katibi, tanınmış yazıçı-dramaturq İlqar Fəhmi, nəhayət, Natəvan klubunun öz qapılarını ənənəvi qaynar məclislərin üzünə açmasından çox sevincli olduğunu dilə gətirdi. Şanlı qələbəmizin ədəbiyyatımıza, xüsusən poeziyamıza yeni bir yaradıcılıq meydanı açdığını vurğuladı. "Bu qələbə həm də söz sənətimizin qələbəsidir" - dedi. Bildirdi ki, poeziya insan qəlbinin ifadəçisidir. İstedadından asılı olmayaraq bu hissi ifadə etməyi heç kəsə yasaqlamaq olmaz. Hər kəsin haqqına hörmətlə yanaşmaq borcumuzdur".

"Ədəbiyyat qəzeti"nin baş redaktor müavini, ədəbiyyatşünas alim Adil Cəmil doğma yurd yerlərimizin işğaldan azad olunması tarixini milli varlığımızın möhtəşəm möhürü kimi dəyərləndirdi, qələbə sevincini müjdələyən şeirlərini səsləndirdi.

Sonra Vətən ətrli poeziya nümunələrinin sırası başladı. Şairlərdən Ofeliya Babayeva, Aybəniz Əl Yar, Xoqani Qayıblı, Narıngül, Güləmail, Sərvaz Hüseynoğlu, Adilə Nəzər, Aləm Kəngərli, Şəfəq Sahibli, Şahməmməd Dağlaroğlu, ikinci Qarabağ döyüşlərinin iştirakçısı Elvin İntiqamoğlu yeni şeirlərini səsləndirdilər. Arif Buzovnalı qələbə mövzusunun ədəbiyyatımızda daha çox ifadə olunmasının vacibliyini vurğuladı.

**Sərvaz**